# BƏŞƏRİ İDEALLAR ŞAİRİ NİZAMİ GƏNCƏVİ

*(Əvvəli ötən saylarımızda)*

“Məxzənül-əsrar” (“Sirlər xəzinəsi”) N.Gəncəvinin filosof və şeyxlik timsalında düşüncələrini, əxlaq və mənəviyyat təsəvvürlərini, dünya duyumu və dünyagörüşünü əhatələmək gücü ilə diqqət önünə gətirir. Məqalələrin sərgilədiyi məzmun (“İnsanın yaranması haqqında”, “Ədaləti gözləmək üçün padşaha nəsihət”, “Aləm hadisələri haqqında”, “Padşahın rəiyyətə qayğısı haqqında”, “Qocalığın tərifi haqqında”, “Varlığın etibarı haqqında”, “Xilqət haqqında”, “Dünyanın vəfasızlığı haqqında”, “Ayıqlığın şərti haqqında”, “Paxıllıqdan şikayət” və s.) Nizaminin fəlsəfi dünyagörüşünü, həyata və özünə qədər olanlara, həyat nizamındakı özünü zaman-zaman göstərən çatlara, mənəviyyat, əxlaq, dəyər, insanlıq anlamında olanlara bir mahiyyət faktı olaraq diqqət yetirir. Daha doğrusu, məqalətlər Nizaminin fəlsəfi konsepsiyasını bir bütöv olaraq ortaya qoya bilmək gücündə diqqət önünə gəlir. Şair bu mülahizələri ilə orta əsrlərin, bir qədər də dəqiq desək, intibah şərqinin bütün formulasını sərgiləyə bilmək gücündə görünür. Məqalətlərin arxasınca verilən hekayətlər isə (“Özündən naümid padşahın dastanı”, “Nuşirəvan və bayquşların söhbəti”, “Süleyman və əkinçi”, “Sultan Səncər və qarı”, “Kərpickəsən kişinin dastanı”, “Ovçu, it və tülkü”, “Firidun ilə maralın dastanı”, “Meyvəsatanla tülkünün nağılı”, “Tövbə sındıran zahidin dastanı”, “İsa peyğəmbərin dastanı”, “Nəzər sahibi bir möbidin dastanı”, “Bir-birilə çəkişən iki həkimin dastanı” və s.) ədibin Şeyxlik dərəcəsini və bunun klassik türk və şərq təfəkküründə mövcud təfəkkür sistemini diqqət önünə gətirir. “Sirlər xəzinəsi” poemasının geneologiyası türkün təfəkkür və mənəviyyat haqqında təsəvvürlərini XII əsrin intibah tipi kimi diqqət önünə gətirir və bunun stixiyasını sərgiləyə bilmək imkanları ilə şərtlənir:

Ey məğrurlar ağası, qüruru tərk et bir an,
Səndən yaxşılıq görsün, feyz alsın bütün cahan.
Xəstələrə vermə zəhmət, dinclik verən ol ancaq,
Nə ol ağalıqdan bir saatlıq ol uzaq...
Gəl Süleyman mülkünü sorma hər an hardadır?
Mülk o mülkdür, soruş ki, bəs Süleyman hardadır?

Nizami yaradıcılığı, dediyimiz kimi, müdriklik, ağıl nümunəsidir, onun sərgilədiyi məzmun, səhər günəşinin şəfəqləri olaraq bütünlükdə bəşər oğluna işıq tutur, ağlını və düşüncəsini isindirir. “Gəl Süleyman mülkünü sorma hər an hardadır?” deyən şair bu sual səviyyəsində ikinci bir sualı onun əlavəsi olaraq diqqət önünə gətirir, “mülk o mülkdür, soruş ki, bəs Süleyman hardadır” deyə bəşər övladının axıra qədər dərk edib çatdırmadığı həqiqəti öz müasirlərinə və gələcəyə ünvanlayır. Nizami zəkası fəlsəfi olduğu qədər həyati, real olduğu qədər mükəmməldir. “Şərq ədibləri Nizamini (əsərlərinə yazılmış hədsiz-hesabsız bənzətmə və nəzirələrdən göründüyü kimi), şairlikdə klassik ədəbiyyatın mürşidi kimi tanımış və “məsnəviçilərin imamı və Şərq əfsanə yazanlarının şeyxi” saymışlar. Bu baxımdan onların nəzərində Nizami, nəhəngliyi ölçülə bilməyən bir yaradıcılıqdır; klassik istilahla desək, o, ixtiraçıdır. Bunun ən böyük şahidi kimi Nizamidən sonra yazıb-yaradan şairlərin heç birinə onun işlətdiyi mövzu, istifadə etdiyi vəzn və formadan xaric bir dastan yazmanın nəsib olmadığı irəli sürülür” (5, 29). Şərq ədiblərinin bir yaradıcılıq ənənəsi, üslub özünəməxsusluğu olaraq müəyyənləşdirdiyi Nizami metodologizmi ortada olan bənzətmə nəzirələrlə faktlaşır. Onun əhatələdiyi sərhədlərin intəhasızlığı türk və bütünlükdə Şərq xalqları səviyyəsində olmadan çıxaraq bəşəri bir təsəvvürə bağlanmaqla diqqət önünə gəlir. “Şairlikdə klassik ədəbiyyatın mürşidi” olmanın prinsip və meyarlarını açıq şəkildə, həm də təbii bir axarda diktə edir. Nizami dühasının nəhəngliyi ancaq özünün müəyyənləşdirdiyi meyarla ölçülə bilər ki, bu da bətnində intəhasızlığı işarələyir. Bütün bunların nəticəsidir ki, təxminən doqquz yüz ilə yaxındır ki, bu böyüklüyün genotip və fövqəlməkanlılıq meyarı yazılır, yozulur, yenə də sözə ehtiyac doğurur və nəyinsə deyilə bilmədiyi düşüncəsi bir tərəf olaraq ortada görünür. Nizami dühası axtarışlar və tapıntıların sıralanması müstəvisində heç kəsin gedib çıxa bilməyəcəyi ixtiraçılıq təsəvvürü ilə xarakterizə olunur. Dədə Qorqud, Uluq Təkin müdrikliyinin (ağsaqqal qoca, müdrik qoca) etnokulturoloji təsəvvürdə boy göstərən müdriklik və

## (Nizami Gəncəvi - 880)



zəka statusu Nizami ilə XII əsrdə təkrarlanır. N.Gəncəvi əzəmətinin poetexnoloji sistemi və təfəkkür stixiyası ondan sonra gələnləri öz təsirinə elə ecazkarlıqla sarmışdır ki, onun formulasını cızmaq, mahiyyətində olanların ecazkarlıq modelini müəyyənləşdirmək özü bir problemə çevrilmişdir. Bütün bunların nəticəsidir ki, orta əsrlərin ədəbiyyat nəhrində ondan sonra gələnlərə “onun işlətdiyi mövzu, istifadə etdiyi vəzn və formadan xaric bir dastan yazmağın nəsib olmadığı” diqqət önünə gəlir. “Məsnəviçilərin imamı”, “Şərq əfsanə yazarların şeyxi” olaraq diqqət önünə gələn şair, “nəzmə qoyduğu əmək”lə bəşər övladının ruh və duyğular aləminin mütəxəssisi olaraq ona istiqamət vermişdir. Yaxın və Orta Şərqin Gəncədən boy göstərən söz gülşəni bütün zamanların örnəyi olaraq Nizami timsalında bu adla müəyyənləşəcək bir meyarı ortaya qoymuşdur.

“Sirlər xəzinəsi”, “Xosrov Şirin”, “Leyli və Məcnun, “Yeddi gözəl”, “İsgəndərnamə”nin ortaya qoyduğu təsəvvür təkcə sözlü ədəbiyyat anlamında olanlar timsalında deyil, bütünlükdə bədii sənət səviyyəsində bir axara istiqamət vermişdir. Nizami əsərlərinin ortaya qoyduğu illüstrasiyalar (rəsm və miniatürlər) sonrakı zaman kəsimlərində onunla müqayisə olunacaq ikinci bir adı diqqət önünə gətirə biləcək gücdə görünmür. “Dünya renesans hərəkatının klassik nümunələrində “insan və təbiət”, “şəxsiyyətin muxtariyyatı” şəklində formalaşıb teosentrik nəzəriyyə əleyhinə çevrilmiş humanist konsepsiya Nizami şeirinin məna və məzmununu təşkil edir. Onun bədii irsi Əl Fərabi, Əl Biruni, İbn Sina, Əl Məərri, Ömər Xəyyam, İbn Rüşd – Şərqin bu renesans xilqətli bahadırlarının ictimai, fəlsəfi, elmi fikirləri işığında götürülərsə, burada nə qədər uyarlıqlar, mənəvi əlaqə, qayə, məqsəd birliyi aşkar etmək olar” (3, 11). N.Gəncəvi “əfsanə yazarların şeyxi” statusunda “Sirlər xəzinəsi” və bütünlükdə “Xəmsə” ilə elə bir düşüncə modeli ortaya qoyur ki, sonrakı dövr ədəbiyyatı öz hərəkət trayektoriyasını onun ətrafında baş sındırmağa köklənir. “İsgəndərnamə”nin müəyyənləşdirdiyi təsəvvür bütünlükdə cahanşümul dövlət olmadan peyğəmbərlik düşüncəsinə, əbədiyaşarlıq kontekstində mif, əfsanə, epos səviyyəsində olanları əhatələmək gücü ilə diqqət önünə gəlir. “İsgəndərlə Sokratın əhvalatı”, “Əflatunun çalğı aləti düzəltməsi”, “Əflatunun keçmişdən hekayə söyləməsi”, “İsgəndərin peyğəmbərliyə yetişməsi”, “Ərəstunun nəsihətləri”, “Sokratın nəsihətləri” və s. bölmələr bütün parametrləri ilə filosof Nizaminin həm də mürşidlik məqamını ehtiva edir.

Nizami, bu qapı açar götürməz,
İlk nəqş bağlananda görməyib heç kəs.
Böyük yaradıcı nə olsa ancaq
Hər nə yaratdısa hündür, ya alçaq,
Ən əvvəl şübhəsiz əqli yaratdı,
Onu öz nuruyla o aydınlatdı (3, 11).

Nizaminin ortaya qoyduğu filosof, mürşidlik, şeyxlik, imam olma məqamı digər aspektdə dünya dərkinə, bunun mahiyyət və bətnində olanların bəsirət formulasına bağlanır. Sokrat, Ərəstun, Əflatun, Valisin, Bəlinasın, Fərfuriyusun söhbətlərində problem kimi qoyulan dərk və dünya nizamı məsələləri Nizamiyə qədər və Nizamidən sonra olan fəlsəfi tendensiyalarda müxtəlif tipli yanaşma modeli olaraq ciddi məzmun daşıyır. N.Gəncəvinin fəlsəfi dünyagörüşü ilə şeyxlik məqamı, biri digərini tamamlamaq funksiyası ilə yeni bir mükəmməlliyi ortaya qoyur.

Ağlın və müdrikliyin Nizami timsalında müəyyənləşdirdiyi meyar həm də bir bütöv olaraq genotip səviyyəsində bədii-estetik, tarixi-mədəni axarının yaddaş məzmununu diqqət önünə gətirir. “İsgəndər ilə çobanın dastanı”, “Arşimides ilə Çinli kənizin hekayəsi”, “Fağır çörəkçinin hekayəsi”, Əflatunun keçmişdən hekayə söyləməsi”, “Əflatunun çalğı aləti düzəltməsi” və s. (“İsgəndərnamə”), “Bəhramın əjdahanı öldürməsi və xəzinə tapması”, “Bəhramın iki şirin arasından tac götürməsi”, “Bəhramın qoca çobanın evinə yetişməsi” və s. (Yeddi gözəl), “Hekayət” (iki hekayət – “Leyli və Məcnun”), “Kərpickəsən kişinin dastanı”, “Sultan Səncər və qarı” hekayəsi”, “Nəzər sahibi bir möbidin dastanı”, “Zalım padşahla zahidin dastanı”, “İsa peyğəmbərin dastanı”, “Yaralı bir uşağın dastanı”, “Mürşidlə müridin dastanı”, “Harunərrəşid ilə dəlləyin dastanı” və s. (“Sirlər xəzinəsi”) bir bütöv olaraq Nizami yaradıcılığının qaynağı timsalında etnokulturoloji təfəkkürdə formalaşmış əxlaq və dəyər məsələlərinə bağlanır. XII əsr intibahı səviyyəsində türk və Şərq əfsanə yazarlarının “əfsanə yazarı” formulası ilə mənəvi uyarlıqlar düsturunu ortaya qoyur. Türk zəkasının ucalıq və dərinlik kodu bütün məzmunu ilə intibah ədəbiyyatı səviyyəsində Nizami ilə reallaşır. Xalqın əfsanə, rəvayət, dastan, atalar sözü, məsəl, mərasim, inam və etiqadları, musiqi zənginliyi onun düşüncə və zəka möhtəşəmliyində bir əlçatmazlıqla boy göstərir. Nizami xalqdan aldıqlarını, etnik müəyyənliyin min illər boyu qəlibləşdirdiyi mədəniyyət və yaşam kodunu elə bir formada təkrar xalqa təqdim edir ki, onun digər alternativi və uyğunluğu miqyasında bədii düşüncə baş sındırmalı olur. Klassik ədəbi axarın imamı olmasına bu hekayət və dastan formasında ortaya qoyduqları ilə hökmfərmanlıq edir. Şeyx Nizami ilə mürşid Nizami bir söz sərrafı, zəka və müdriklik örnəyi olaraq bəşər oğluna nəsihətlərini çatdırır. Bütün bunlarla Nizami fenomenliyinin “Xəmsə” səviyyəsində həm də kontekstini etnik müəyyənlik timsalında diqqət önünə gətirir. “N.Gəncəvinin yaradıcılıq tipologiyası, heç şübhəsiz, Qafqaz-Kiçik Asiya türk etnik-mədəni regionunun formalaşması prosesində müəyyənləşmişdir, bu isə o deməkdir ki, N.Gəncəvini genezisi və coğrafiyası “mücərrəd” olan hər hansı intibah hərəkatı yox, ümumən, haqqında danışılan etnik-mədəni regionu formalaşdıran tarixi potensiya yetirmişdir” (2, 41). “Xəmsə”nin bətnində müəyyənləşdirdiyi metodologizm forma, üslub, düşüncə və bütünlükdə mətn səviyyəsində “Xəmsə” və N.Gəncəvi adı ilə bağlanacaq bir təsəvvür və düşüncə modelini faktlaşdırır. Məsələn, “Sirlər xəzinəsi” timsalında özünü göstərən model, məqalət və hekayət timsalında həm bütövlüyü, həm də orijinallığı sərgiləyir. Mətnin başlanğıcındakı bölmələr “Söz haqqında”, “Nəzmin nəsrdən yüksəkliyi haqqında”, “Könül haqqında” və s. şairin düşüncəsində olanları və sənətkar intelleksiyasını təqdim etmək xüsusiyyəti ilə bir bütövlüyü açıqlayır.

**(Davamı var)**



***Mahmud ALLAHMANLI,***
***filologiya elmləri doktoru, professor***